# Gəncə Avtomobil Zavodunda on mininci traktor konveyerdən çıxmışdır



Ölkəmizin sənaye potensialında xüsusi yeri olan Gəncə Avtomobil Zavodu son illər fəaliyyətini daha da genişləndirərək uğurlu addımlar atmışdır. Zavod son 10 ildə qazandığı nailiyyətlərlə nəinki respublikamızda, eləcə də bütövlükdə regionda böyük nüfuz sahibi olmuşdur. 2004-cü ilin dekabr ayından fəaliyyətə başlayan zavodda cəmi 3 il ərzində yüzlərlə OKA, UAZ, ÇANQAN və sair minik avtomobillərinin yığımı həyata keçirilmişdir.

Müəssisənin fəaliyyətinin genişləndirilməsi əsasən 2006-cı ilin oktyabr ayında Prezident İlham Əliyevin Belarus Respublikasına səfərindən sonra gerçəkləşmişdir. Belə ki, ölkələrarası ikitərəfli müqavilə çərçivəsində Gəncə Avtomobil Zavodu Belarusun bir neçə avtomobil müəssisəsi, o cümlədən Minsk Traktor Zavodu ilə əməkdaşlıq haqqında memorandum imzaladıqdan sonra Gəncə zavodunda yeni yığım xətləri yaradılmış və 2007-ci ilin mart ayının 27-də ilk dəfə olaraq "Belarus-80.1" markalı traktoru konveyerdən çıxmışdır. Bununla da zavodda ölkəmizin aqrar sahəsində mühüm əhəmiyyətə malik kənd təsərrüfatı traktorlarının istehsalına başlanılmışdır. Bundan başqa, zavodda traktorla yanaşı 3000-dək "MAZ" avtomobili də istehsal olunmuşdur.

Müəssisənin Belarus Respublikası ilə əlaqələri təkcə traktor və avtomobillərin yığımı ilə məhdudlaşmır. 2007-ci ilin sentyabr ayında Belarusun "Dorelektromaş" və "Smorqon aqreqat zavodu" ilə əldə edilən razılığa əsasən "Belarus" traktorlarının bazasında asma avadanlıqların istehsalına da başlanılmışdır. 2009-cu ildə isə Belarusun "Moqilyov transmaş" ASC-lə bağlanmış müqaviləyə uyğun olaraq yük qaldırma qüvvəsi 25 ton olan avtokranların yığımı təşkil edilmişdir. 2013-cü ildə Minsk Təkərli Dartıcılar Zavodu ilə bağlanmış ikitərəfli müqaviləyə əsasən yeni istehsal sahəsi işə salınmışdır.

Gəncə Avtomobil Zavodu Belarus Respublikası ilə əlaqələri durmadan genişləndirir. Hazırda yuxarıda adları çəkilən texnika və qurğuların istehsalı bu gün də uğurla davam etdirilir. İndi həyatımızın müxtəlif sahələrində üzərində "Gəncə" sözü yazılmış çoxlu sayda texnika ilə rastlaşmaq mümkündür. Lakin zavod kollektivi bu uğurları son hədd hesab etmir. Elə bu günlərdə zavodda 10 000-ci traktorun konveyerdən çıxması ilə əlaqədar keçirilən tədbirdə də bu barədə ətraflı söhbət açılmışdır. Tədbirdə Belarus Respublikası baş nazirinin birinci müavini Vladimir Semaşko, Azərbaycan Respublikası baş nazirinin birinci müavini Yaqub Eyyubov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev, Gəncə Avtomobil Zavodu İstehsalat Birliyi Müşahidə Şurasının sədri, Milli Məclisin deputatı Xanlar Fətiyev, Minsk Traktor Zavodunun baş direktoru Fyodor Domotenko, Minsk Avtomobil Zavodunun baş direktoru Dmitriy Kateriniç çıxış edərək iki dost ölkənin bu əməkdaşlığını yüksək dəyərləndirmiş, indiyədək qazanılmış uğurların bundan sonra da davam etdirilməsinin vacibliyini qeyd etmişlər. Diqqətə çatdırılmışdır ki, Gəncə Avtomobil Zavodu Belarus Respublikasının sənaye müəssisələrinin ən yaxşı partnyorudur və əməkdaşlığın bundan sonra da genişləndirilməsi hər iki respublikanın iqtisadiyyatına külli miqdarda gəlir gətirə biər.

Sonra tədbir iştirakçılarının alqış sədaları altında Gəncə Avtomobil Zavodunda yığılmış 10 000-ci "Belarus" traktoru konveyerdən çıxmışdır. Belaruslu qonaqlar zavod kollektivi ilə səmimi söhbətlər apardıqdan sonra xatirə şəkli çəkdirmişlər. Axırda Gəncə Avtomobil Zavodu İstehsalat Birliyi ilə Minsk Traktor Zavodu arasında uzunmüddətli tərəfdaşlıq haqqında strateji saziş və qarşılıqlı əməkdaşlıq haqqında müqavilə imzalanmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2018.- 3 aprel.- S.2.